# Prinston Universiteti

Prinston Universiteti (Princeton University) ABŞ-ın ən qədim və tanınmış universitetlərindən biridir. Prinston şəhərində, Nyu-Cersi ştatında yerləşən və məşhur Sarmaşıq Liqasının səkkiz ali məktəbindən biri olan bu universitetin tələbəsi olmaq dünyanın müxtəlif ölkələrinin gənclərinin ən böyük arzusudur. Universitet Böyük Britaniyanın "Times Higher Education" jurnalının 2015-2016-cı tədris ili üçün dünya universitetlərinin reytinq cədvəlində 7 -ci, "QS University Subject Rankings" nəşrinin 2015-2016-cı tədris ili üçün dünya universitetlərinin reytinq cədvəlində 11-ci yerdədir. Prinston Universiteti 2016-cı ildə Amerika Milli Universitetləri (National Universities Rankings) reytinqində 1-ci yerdədir.

**Yerləşir:** Prinston şəhəri, Nyu-Cersi ştatı, ABŞ
**Yaranma tarixi:** 1746-cı il
**Tipi:** Özəl
**Akademik heyət:** 1221 nəfər
**Tələbələrin ümumi sayı:** 7946 nəfər
**Ümumi gəlirləri:** 1.750 milyard dollar (2015-2016-cı tədris ili)
**Ümumi xərcləri:** 1.750 milyard dollar (2015-2016-cı tədris ili)
**Rəsmi saytı:** www.princeton.edu



## Tarixi

Prinston Universitetinin tarixi 22 oktyabr 1746-cı ildə Britaniya müstəmləkəsinin Qanunverici Şurası tərəfindən kral II Heorqun adından bir qrup pastora (protestant keşişi) kollec yaratmaları üçün icazə kağızı verilməsi ilə başlayıb. Nyu-Cersi Kolleci adı ilə fəaliyyətə başlayan təhsil ocağı Harvarddan, William və Marry, Yel kolleclərindən sonra Şimali Amerikada yaranmış dördüncü kollecdir. Kollec protestantlar tərəfindən yaradılmasına baxmayaraq, təhsil müəssisəsində başqa dinlərin nümayəndələri də təhsil ala bilirdilər. Həmin dövrdəki təhsil ocaqları üçün bu cür dinə dözümlülük fenomenal hal hesab olunurdu. Lakin burada dini istiqamət daha güclü olub. Bu, kollecin şüarında da öz əksini tapıb: "Allahın izni ilə çiçəklənir". İlk vaxtlar kollec Elizabet şəhərində Conatan Dikkinsonun evində yerləşib və həmin vaxt universitetdə cəmi doqquz tələbə təhsil alıb. 1747-ci ildə kollec Nyuark şəhərində pastor Aaron Berrin himayəsinə keçib və Berr kollecin prezidenti olub. 1756-cı ildə o, təhsil müəssisəsinin Prinston şəhərinə köçürülməsinə nail olub. Bu dövrdə Böyük Britaniyadan yığılan ianə hesabına tələbə və müəllimlər üçün xüsusi bina tikilib, binaya Nossau-Holl adı verilib. Hazırda bu tikili memarlıq abidəsinə çevrilib. Prinston Amerika inqilabında böyük rol oynayıb. Amerikanın müstəqillik haqqında Bəyannaməsinin altında universitetin rektoru Con Uizerspunun imzası durur. Konstitusiya konventi iştirakçılarının əksəriyyəti Prinstonun məzunları olub və onlar 1799-cu ildə yekdilliklə ABŞ-ın yeni Konstitusiyasının yaranmasına səs veriblər. 1783-cü ildə Prinstonda tələbələrin təntənəli qəbulu mərasimində Corc Vaşinqton daxil olmaqla, bütün konqres üzvləri iştirak ediblər. Konqres üzvlərinin əksəriyyəti bu universitetin məzunları olublar. İdman Amerika tələbələrinin həyatında böyük rol oynadığından Prinstonda da həmin ənənə davam edir. Burada ilk idman zalı 1859-cu ildə tikilib. XIX əsrin 60-cı illərindən başlayaraq kollecin tələbələri narıncı rəngdə (kral III Uilyamın mənsub olduğu Nossau-Oran sülaləsinin rəngi) idman formaları geyiniblər, köynəklərindəki nömrələr isə qara rəngdə idi. Bu ənənə indiyədək davam edir. Beləliklə, 1896-cı ildə narıncı və qara rənglər Prinston Universitetinin rəsmi rəngi seçilib. Narıncı-qara rənglərin qarışığı pələng dərisini xatırladır. Elə bu səbəbdən də Prinstonun idman komandalarının adı "Pələnglər"dir. 1882-ci ildən universitetin yuxarı kurs tələbələri "The Princeton Tiger" ("Prinstonun pələngləri") adlı yumoristik jurnal dərc edir. XIX əsrin 70-ci illərində Prinstonun hərtərəfli uğurları onu Harvard və Yel universitetləri ilə bir səviyyəyə qaldırıb. 1877-ci ildə burada magistratura yaradılıb, 1896-cı ildə isə Prinstona universitet statusu verilib.

1874-cü ildə Prinstonun məzunu olmuş və ABŞ-ın gələcək prezidenti Tomas Vudro Vilson 1902-ci ildə universitetə rektor seçilib. O, universitet üçün yeni şüar tərtib edib: "Prinston - dövlətə xidmət üçün, kilsəyə yox!". T.Vilson eyni zamanda tədris proqramlarını ümumi təhsil (ilk 2 il ərzində) və ixtisaslaşdırılmış (əlavə 2 il) hissələrə bölərək təkmilləşdirib. Onun rəhbərliyi zamanı (1902-1910-cu illər) magistrantların hazırlığı üçün yeni kollec tikilib, fakültələrin sayı artırılıb, humanitar istiqamətli kafedralar yaradılıb və əlavə yataqxanalar tikilib. Lakin T.Vilson doktorantların təhsilini axıra qədər təşkil edə bilməyib, bu işi onun yerinə başqaları həyata keçiriblər. Rektor əvvəlcə ştatın qubernatoru, sonradan isə ölkənin prezidenti seçkilərində öz namizədliyini irəli sürmək üçün universiteti tərk edib. 1969-cu ildə ilk dəfə olaraq universitetə qızlar qəbul olunublar. Hazırda qız tələbələrin oğlan tələbələrlə nisbəti 45:55-dir.

## Universitet bu gün

Yarım əsr bir binada fəaliyyət göstərdikdən sonra Prinston Universitetində sürətlə tikinti işləri aparılaraq ərazisi genişlənməyə başlayıb. Hazırda universitetin 500 hektarlıq kampusunda və oradan kənarda 180-dən çox müxtəlif tikili - tədris korpusları, elmi-tədqiqat laboratoriyaları, kitabxanalar, çoxsaylı yataqxanalar, muzeylər, idman zalları, stadionlar, kilsə və digər binalar mövcuddur. Universitetin strukturları Benjamin Latrob, Ralf Adams Kram, McKim, Med və Uayt, Robert Venturi və Nik Yeger kimi məşhur memarlar tərəfindən hazırlanıb.

Prinstonun tərkibinə Texniki və tətbiqi elmlər məktəbləri, İnşaat və şəhərsalma, İctimai və beynəlxalq əlaqələr, Astrofizika elmləri bölmələri, biologiya, kimya, iqtisadiyyat, fəlsəfə, siyasət, sosiologiya, psixologiya, ilahiyyat, roman dilləri və ədəbiyyatı, german dilləri və ədəbiyyatı, bədən tərbiyəsi və digər fakültələr, eləcə də C. Forretstol adına elmi-tədqiqat mərkəzi (aeronavtika, kosmik tədqiqatlar, texniki elmlər, plazma fizikası laboratoriyaları bölmələri mövcuddur) daxildir. Aparıcı yerli Makkarter Teatrı, Bədii təsvir və Təbii Tarix muzeyləri də universitetin strukturuna daxildir. Universitetin 10 kitabxanasında 14 milyon cilddən çox kitab var. Ən böyük kitabxana 6 milyondan çox kitabı olan Firestone kitabxanasıdır. Kitabxanada 49000 nadir tarixi əhəmiyyət daşıyan qiymətli əlyazmalar saxlanılır. Kitabxana fondu oxucular tərəfindən açıq istifadə olunur. 2007-ci ilin fevralından Prinston Universiteti Google beynəlxalq axtarış şəbəkə sisteminə qoşulub. Prinston həmçinin super kompüter sisteminə malikdir. "Orangena" adlı bu EHM (IBM) kompüter sistemi 2005-ci ildə dünyanın ən sürətli 79 super kompüter sistemi seçilib.

Prinston Universitetinin pedaqoji heyəti yüksək səviyyədə ixtisaslaşıb. Bütün müəllimlər tədqiqat işi ilə məşğuldur və bura çoxsaylı tələbə cəlb edilir. Universitetin professorları bütün dünyada məşhur olan TOEFL dil testinin müəllifləridir.

## Büdcəsi və təhsil haqları

Amerikanın özəl təhsil sistemi öz məqsədlərinə nail olmağına görə unikaldır, belə ki, ictimai və özəl resursların kombinasiyasından ibarətdir. On milyon dollar təşkil edən çoxsaylı donor yatırımları universitetin maliyyə müstəqilliyini təmin edir, sərbəst tədris proqramlarının, kadr potensialının seçiminə yardım göstərir, tikinti məsələlərinin həllində kömək edir. Hazırda Prinston Universitetinin kapitalı 2 milyard dollar təşkil edir, bu da ABŞ-ın Harvard və Texas universitetlərindən sonra 3-cü yerə sahib olmaq deməkdir. 2015-2016-cı tədris ilində illik təhsil haqları 43,450 dollar olaraq müəyyən olunub. Yaşayış, qidalanma və digər zəruri xərclər nəzərə alınmaqla 2016-2017-ci illər üçün tələbələrin ümumu xərcləri 60090 dollardır. Akademik heyət 1221 nəfər təşkil edir. Tələbə-müəllim nisbəti 6:1-dir. Tələbələrin ümumi sayı 7946 nəfərdir. Onların 98 faizi kampusda yaşayır. Əcnəbi tələbələr ümumi tələbə sayının 12 faizini təşkil edir. 2015-2016-cı tədris ilində universitetin ümumi gəlirləri 1.750 milyard dollar, ümumi xərcləri 1.750 milyard dollar təşkil edir. Prinston nəinki tələbə və aspirantların hazırlığını həyata keçirən nüfuzlu universitet, eyni zamanda dünyanın aparıcı elm mərkəzlərindən biridir. Hər il orta hesabla universitet elmin müxtəlif sahələrində tədqiqatların aparılmasına 140 milyon dollar xərcləyir. Bu vəsaitlər dövlət müəssisələrindən, özəl korporasiyalardan daxil olur. Universitetin məqsədli fondu (endaument) 22 milyard 723 milyon dollar təşkil edir. İl ərzində universitetin müəllimləri və alimləri tərəfindən 2500-dən artıq elmi məqalə dərc olunur. Ali məktəbdə elmin müxtəlif sahələri üzrə 60-dan artıq elmi-tədqiqat institutu, mərkəzlər proqram və layihələr üzərində işləyir. Tələbələrin 88 faizi ali məktəbi diploma başa vura bilir.

## Tədris prosesi

Prinston Universitetinə qəbul olmaq o qədər də asan deyil. Bunun üçün abituriyentdən yüksək bilik tələb olunur. Hər il ali məktəbə sənəd verənlərin yalnız 7 faizi tələbə adını qazanır. Universitet üçün ideal namizəd dərin baza hazırlığına, yüksək nəticələr əldə etmək məqsədilə marağa, bacarığa və s. keyfiyyətlərə malik olmalı, ən azı bir xarici dil bilməlidir. Universitetdə dərslər sentyabrda başlayır və iyunda bitir. Təhsil müddəti 4 il olmaqla 8 semestrdən ibarətdir; belə ki, tələbə bir semestr ərzində keçilən 30 fənni mənimsəməlidir. Təhsilin 1-ci və 2-ci illərində tələbələr baza bilikləri əldə edir, 3-cü və 4-cü illərində isə intensiv ixtisas proqramlarını öyrənirlər. Tədris planı hər bir tələbənin maraq və həvəsini, universitetin tələblərini nəzərə alaraq fərdi formada təşkil olunur. Prinston Universitetinin tədris prosesində "preseptorial" və ya rəhbərlik prinsipi əsas yer tutur, xüsusilə bu forma humanitar və sosial elmlərin öyrədilməsində istifadə olunur və mühazirə dərsləri ilə tamamlanır. Belə tədris kiçik qruplarda nizamnamə dərslərini xatırladır. Tədris prosesi universitetdə fərdin fənn planları və elmi-tədqiqat işləri ilə bərabər təşkil olunub.

Prinston Universitetində tələbələr dəqiq elmlər, ictimai elmlər, incəsənət və ədəbiyyat, tarix, fəlsəfə və ilahiyyat üzrə biliklərə yiyələnirlər. Birinci kursun proqramı tələbələrdə savadın yüksəldilməsi və sərbəst düşüncə bacarığının inkişaf etdirilməsini nəzərdə tutur. Ali məktəbdə xüsusi "qlobal sinif"lər mövcuddur ki, burada tələbələr 20-dən artıq əcnəbi dil öyrənə bilərlər. Hazırlığın keyfiyyəti test və imtahanların köməyi ilə yoxlanılır. Maraqlıdır ki, Prinston Universitetində bütün yazılı imtahanlar "vicdan sistemi" (Honor Code) ilə aparılır. Tələbələr vicdanla imtahan verməyə söz verirlər, buna görə də müəllim imtahanın gedişinə nəzarət etmir. O, sadəcə imtahan vərəqlərini paylayır, suallara cavab verir və auditoriyanı tərk edir, sonda isə vərəqləri toplamaq üçün auditoriyaya dönür. Hər bir tələbə işini imzalayarkən yazır: "Vicdanıma and içirəm ki, imtahan zamanı vicdan kodeksini pozmamışam".

İncəsənət üzrə bakalavr dərəcəsini aldıqdan sonra məzun departamentdə doktoranturada qala bilər. Tələbələrə 4-5 illik təhsildən sonra fəlsəfə doktoru dərəcəsi verilir. İlk 2 ildə tələbələr diplomdan sonra 3-4 kurs təhsil alır və ümumi imtahan verirlər. Sonda isə onlar magistr dərəcəsi alırlar. Ali məktəbdə bütövlükdə 42 ixtisas üzrə magistr dərəcəsi almaq olar. Magistr dərəcəsi aldıqdan sonra əlavə 2-3 il dissertasiya hazırlığına həsr edirlər. Bunun üçün xüsusi komitənin razılığı olmalıdır, yalnız belə olan halda namizəd fəlsəfə doktoru dərəcəsi almaq üçün müdafiəyə buraxılır. Universitetin prezidenti Kristofer Eisgruber, rektoru Devid Lidir.



*Albert Eynşteyn mühazirə zamanı, 1933-cü il*



*2015-ci ilin məzunları*



*Tələbələr universitetin kampusunda*

## Universitetin məşhur məzunları

Prinston Universiteti Amerikanın milli fəxri hesab olunur. Universitet mühəndislik fizikası, riyaziyyat, fəlsəfə və s. istiqamətlər üzrə ABŞ-ın ən yaxşı universitetidir. Məlumdur ki, nisbilik nəzəriyyəsinin banisi, fizika üzrə Nobel mükafatı laureatı Albert Eynşteyn 1933-cü ildə Prinston Universitetində müəllimlik edib və mühazirələr oxuyub. Onun yaşadığı ev universitet ərazisindədir. Bu evdə alim 20 il yaşayıb.

Universitetin məzunları arasında Amerikanın bir neçə prezidenti və 30 Nobel mükafatı laureatı var. ABŞ-ın iki prezidenti - Ceyms Medison (1771) və Vudro Vilson (1874), hazırkı prezident Barak Obamanın həyat yoldaşı, ABŞ-ın birinci xanımı Mişel Obama, keçmiş dövlət katibləri Corc Şuls və Ceyms Beyker, sabiq müdafiə naziri Donald Ramsfeld, yüzdən artıq senator, konqresmen, 44 qubernator, X-effektlilik konsepsiyasının təməlini qoymuş Amerika iqtisadçısı Harvi Leybenstayn, Filds mükafatı laureatı olmuş Amerika riyaziyyatçısı Con Milnor, iqtisadiyyat üzrə Nobel mükafatçısı Con Neş, diaqramın yaranması, elementar hissəciklərin çevrilməsinin təsvirinə görə fizika üzrə Nobel mükafatı laureatı Riçard Feynman, Hollun kəsr kvant effektinin ixtirasına görə fizika üzrə Nobel mükafatçısı Daniel Sui, süni intellekt sahəsində uğurlarına görə Tyurinq mükafatçısı olmuş amerikalı alim Con McKarti, Böyük Ferm nəzəriyyəsinin ixtiraçısı Endryu Uayls, "Kompton effektinin" yaradıcısı Artur Kompton, filosof, yazıçı, mədəniyyətşünas Kvame Entoni Appia Prinston Universitetinin məşhur məzunlarındandırlar. Con Markoninin, Aleksandr Bellin, Enriko Ferminin, Robert Oppenqeymerin adları bu təhsil ocağı ilə bağlıdır.

Universitet XX əsrin ikinci yarısından bütün dünyanın ən böyük və nüfuzlu beynəlxalq tədris mərkəzlərindən birinə çevrilib.

**Oruc MUSTAFAYEV,**
*"Azərbaycan müəllimi"*